# Uğurlu sosial siyasət və vətəndaş məmnunluğu

**Prezident İlham Əliyev Real televiziyasına müsahibəsində bildirmişdi ki, bütün çətin anlarda dövlət vətəndaşın yanındadır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq".**

Xüsusi vurğulanmalıdır ki, dünyanın heç bir ölkəsində sığortalanmamış mülk və obyektlərin dağılması və ya ciddi ziyan görməsi nəticəsində yaranmış maddi itkilər dövlət tərəfindən ödənilmir və bir çox hallarda vətəndaş öz problemləri ilə təkbətək qalır. Lakin Azərbaycan dövləti humanizm prinsiplərinə böyük hörmətlə yanaşaraq, vətəndaşının qayğılarını diqqət mərkəzində saxlayır, bu və ya digər səbəblərdən ciddi maddi ziyan çəkmiş vətəndaşlara hərtərəfli yardım göstərir. Bu günlərdə biz bu nümunənin bir daha şahidi olduq.

Məlum olduğu kimi, Prezident İlham Əliyev Bakının Nizami rayonu ərazisindəki "Diqlas" ticarət mərkəzində baş vermiş yanğından dərhal sonra geniş müşavirə keçirdi və lazımi göstərişlərini verdi. Müşavirədən sonra İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin binasında keçirilən qəbulda sahibkarların problemləri, onlara dəymiş maddi ziyan, fəaliyyətlərinin təşkili və davam etdirilməsi ilə bağlı fikirləri öyrənilir, baş vermiş hadisə ilə əlaqədar yaranmış çətinliklər və digər zəruri işlər müzakirə olunur. İşçi qrupu tərəfindən indiyədək 441 sahibkar fərdi qaydada qəbul edilib və 381 sahibkarın 15 milyon manatadək güzəştli kreditə ehtiyacının olduğu məlum olub. Artıq sahibkarlarla işlərə başlanılıb. Bundan başqa, İqtisadiyyat Nazirliyi tərəfindən ticarət mərkəzləri ilə aparılmış müzakirələr nəticəsində əldə edilmiş razılığa əsasən, sahibkarlara 5 ay icarə haqqı ödənilməmək şərti ilə Bakı şəhərinin müxtəlif ərazilərində yerləşən 7 ticarət mərkəzində ümumi sahəsi 30 min kvadratmetr olan 680-ə yaxın ticarət obyekti təklif olunub. Nəzərdə tutulub ki, digərlərindən fərqli olaraq, yanğından ziyan çəkmiş sahibkarlar 20 faiz aşağı icarə haqqı ödəyəcəklər.



Ümumiyyətlə, cari ilin ötən dövründə Azərbaycan Prezidenti İlham Əliyev bir sıra güclü sosial xarakterli Fərman və sərəncamlar imzalayıb. Bununla da dövlətimizin başçısı heç bir ölkədə rast gəlinməyən addım atmaqla Azərbaycan vətəndaşını düşünən humanist bir Prezident kimi bütün dünyaya nümunə göstərib. Problemli kreditlərin dövlət tərəfindən nizamlanması buna ən gözəl sübutdur. Martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə Prezident İlham Əliyev demişdi ki, Azərbaycanın iqtisadi imkanları yarandıqca, ilk növbədə, problemli kreditlər məsələsini həll etməyə qərar verdik və bunu bacardıq. Həmin görüşdə dövlət başçısı iqtisadi islahatların sosial sahədə çox ciddi addımlar atılmasına imkan verdiyini açıqladı: "Bu ilin əvvəlindən keçən il ərzində hazırlanmış sosial layihələr icra edilməyə başlanmışdır. Azərbaycan vətəndaşları bunu yaxşı bilirlər. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması təxminən 600 min insanı əhatə edir. Çoxmənzilli binaların sənədləşdirilməsi təxminən 350-400 min insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı əhatə edir. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır". Dövlət başçısı əlavə etmişdi ki, digər sosialyönümlü addımlar, fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında imzalanmış Fərman 800 min insanı əhatə edir. Dövlət başçısı həmin Fərmanı çox ciddi bir sosial təşəbbüs kimi qiymətləndirərək bildirib ki, bu addımla dövlət öz vətəndaşının yanında olduğunu bir daha göstərib.

Bir çox xarici ölkələrdə dövlətin qaçqın düşmüş və ya çətin sosial vəziyyətə məruz qalmış vətəndaşlarına yardım etmədiyinin şahidiyik. Yurdundan didərgin salınan bəzi ərəb ölkələrinin əhalisinin Avropaya üz tutmasını, ailələrin yollarda faciələrə düçar olmasını hamımız televiziya vasitəsilə görmüşük. Bu baxımdan dövlətimizin öz vətəndaşlarına necə dayaq olduğu təsəvvürə daha bariz şəkildə gəlir.

Bəli, bu gün Prezident İlham Əliyevin apardığı humanist sosial siyasət nəticəsində cəmiyyətdə narahatlıq doğuran problemlərin öz həllini tapması sözün əsl mənasında vətəndaş məmnunluğu yaradır.

**Vəli İlyasov,**
***"İki sahil"***